PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.31-37
https://doi.org/10.30546/30015.2025.4.018

# SOYUQ MÜHARİBƏ DÖVRÜNDƏ İNFORMASİYA QARŞIDURMASI: SSRİ VƏ QƏRB İDEOLOJİ RƏQABƏTİNİN SİYASİ TƏSİRLƏRİ

**E.B. Talışınski, R.B. Səfərova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: safarovareyhane@gmail.com

**Xülasə.** Məqalədə Soyuq müharibə dövründə SSRİ və Qərb dövlətləri arasında formalaşan informasiya mübarizəsinin mahiyyəti, ideoloji rəqabətin media və diplomatiya vasitəsilə dövlətlərarası münasibətlərə təsiri araşdırılır. Tədqiqat göstərir ki, təbliğat və media ictimai rəyi formalaşdırmaqla bərabər, həm də diplomatik münasibətləri və dövlət stategiyalarını müəyyən edən əsas vasitə olmuşdur.

**Açar sözlər:** Soyuq müharibə, ideoloji rəqabət, media və siyasət, media diplomatiyası.

## Giriş

XX əsrin ikinci yarısı dünya tarixində siyasi, iqtisadi və ideoloji mübarizələrin kəskinləşdiyi dövr kimi xarakterizə olunur. İkinci Dünya müharibəsindən sonra yaranan yeni beynəlxalq nizam iki böyük qüvvənin-SSRİ və Qərb blokunun rəqabəti üzərində formalaşmışdı. Bu mübarizə yalnız hərbi və iqtisadi sahələrdə deyil, eyni zamanda informasiya və ideologiya müstəvisində də özünü göstərmişdi. "Soyuq müharibə" adlandırılan bu dövr faktiki silahlı toqquşma olmadan, sadəcə ideoloji və informasiya cəbhəsində özünü göstərən mübarizə olaraq qeydə alınmışdır.

İnformasiya müharibəsi həmin dövrdə SSRİ və Qərb dövlətlərinin xarici siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdi. Kütləvi informasiya vasitələri olan radio, mətbuat, televiziya, kino və incəsənət ideoloji təsirin geniş auditoriyalara çatdırılmasında mühüm rol oynamışdı. [7, s.42-44]. Bu dövrdə SSRİ öz sosialist ideologiyasını "ədalətli dünya nizamı" kimi təqdim edirdi. Digər tərəfdən Qərb dövlətləri isə demokratiya və azadlıq dəyərlərini ön plana çəkərək qarşı tərəfin siyasi sistemini tənqid edirdi. Qərb mediası SSRİ-ni totalitar və repressiv dövlət obrazında təqdim edərək ictimai fikri öz maraqları istiqamətində yönləndirirdi [8, s.254-258]. Bu proses nəticəsində informasiya və təbliğat yalnız ictimai rəyi formalaşdıran vasitə rolunu oynamır, həm də beynəlxalq münasibətlərin istiqamətini müəyyən edən strateji silah funksiyasını daşımağa başlamışdı.

Soyuq müharibə dövründə informasiya mübarizəsi dövlətlərin diplomatik qərarlarına, beynəlxalq təşkilatların fəaliyyətinə və xalqların dünyagörüşünə ciddi təsir göstərmişdi. Qərb

analtiklərinin fikrincə informasiya müharibəsi güc balansını silahsız dəyişdirən ən effektiv vasitə olmuşdur [4, s.61]. Məhz bu səbəbə görə həmin dövrün təhlili tarixi faktların araşdırılması deyil, həm də müasir dövrdə informasiya siyasətinin, media strategiyalarının və qlobal ideoloji balansın anlaşılması baxımından xüsusi əhəmiyyətə malikdir.

Bu tədqiqatın əsas məqsədi soyuq müharibə dövründə SSRİ və Qərb dövlətləri arasında aparılan informasiya müharibəsinin mahiyyətini, onun ideoloji məqsədlərini və beynəlxalq münasibətlər sisteminə təsirini müəyyən etməkdir.

Tədqiqatın əsas vəzifələri aşağıda göstərilmişdir:

1. İnformasiya müharibəsi anlayışını və onun siyasi-tarixi əsaslarını müəyyənləşdirmək;
2. Soyuq müharibə dövründə SSRİ və Qərb dövlətlərinin təbliğat strategiyalarını müqayisəli şəkildə təhlil etmək;
3. İnformasiya müharibəsinin dövlətlərarası münasibətlərə, diplomatik əlaqələrə təsirini qiymətləndirmək;

**Tədqiqat**

İnformasiya sistemlərinin kənar hücumlardan müdafiəsi və qarşı tərəf üzərində informasiya üstünlüyü əldə etmək üçün həyata keçirilən informasiya əməliyyatları informasiya müharibəsi adlandırılır. İnformasiya müharibəsi və onun tətbiqi texnologiyaları qədim tarixə malikdir. Bəşər cəmiyyəti var olduqca informasiya mübarizəsi bu və ya digər formada hər zaman mövcud olub. İnsanlar tərəfindən aparılan fiziki müharibə və informasiya müharibəsi bir-biri ilə əlaqəli məfhumlardır. Fiziki müharibə etmədən informasiya müharibəsi aparmaq mümkün olsa da, fiziki müharibə aparılarkən, onun tərkib hissəsi kimi informasiya müharibəsinin aparılması zəruridir. Ən qədim tarixi və dini kitablarda insanlar arasında informasiya müharibəsi haqqında məlumatlar mövcuddur. Məsələn, Monqol imperiyasının banisi Çingiz xanın yürüşləri zamanı ordunun önündə xüsusi informasiya hazırlığı görmüş atlı qrupları hərəkət edirdi. Onlar Çingiz xanın ordusunun hədsiz dərəcədə güclü və amansız əsgərlərdən təşkil olunduğu haqqında xəbərlər yayaraq insanlar arasında qorxu yaradırdılar. Bu cür psixoloji təsir vasitələrindən Əmir Teymur, Makedoniyalı İsgəndər kimi məşhur sərkərdələr də istifadə edib [9].

"İnformasiya müharibəsi" termini ilk dəfə 1976-cı ildə amerikalı mütəxəssis Tomas Rona tərəfindən "Boeing" şirkəti üçün hazırlanan "Silah sistemləri və informasiya müharibəsi" adlı hesabatda işlədilmişdir. Rona öz hesabatında son illərdə informasiya infrastrukturunun ABŞ iqtisadiyyatının əsas komponentinə çevrildiyini əsaslandırmışdı. Bu termin rəsmi şəkildə ilk dəfə ABŞ Müdafiə Nazirliyi tərəfindən 1992-ci ildə istifadə edilmişdir. Müdafiə Nazirliyinin informasiya müharibəsi ilə bağlı sənədlərində bildirilir ki, informasiya silah və məqsəd rolunu

oynayr. Nazirliyin təsvirinə görə, informasiya hücumu icazə olmadan informasiyanın köçürülməsi, dəyişdirilməsi və məhv edilməsi, eyni zamanda proqram təminatlarına, məxfi informasiyanın saxlandığı texniki qurğulara və insan psixologiyasına yönəlmiş əməliyyatları nəzərdə tutur.

ABŞ mənbələrində informasiya müharibəsi tez-tez informasiya əməliyyatı ilə müqayisə olunur. İnformasiya əməliyyatı-qarşı tərəfin informasiya fəzasına təsir edərək məqsədə çatmaq və eyni zamanda öz informasiya resurslarını qorumaq üçün siyasi, iqtisadi, texniki, hərbi və digər xüsusi metod və vasitələrdən istifadə etməklə aparılan mübarizə formasıdır. Rusiyanın mütəxəssisləri isə bu növ mübarizəni "informasiya qarşıdurması" kimi təsvir edirlər.

İnformasiya qarşıdurması tərəflərin xüsusi metodlardan, informasiya resurslarına təsir üsullarından və vasitələrindən istifadə etməklə qarşı tərəfin informasiya resurslarına birbaşa təsir göstərə bildikləri mübarizə formasıdır. Amerika tədqiqatçılarına görə, informasiya əməliyyatları vasitəsilə reallaşan informasiya qarşıdurması hərbi qüvvələrin, elmi mərkəzlərin və müxtəlif siyasi təşkilatların hazırlıq və fəaliyyətində informasiya müharibəsi texnologiyalarının geniş tətbiqini tələb edir. İnformasiya qarşıdurmasının əsas məqsədi qarşı tərəfin, o cümlədən informasiya daxil olmaqla, bütün növ resurslarına təsir göstərməkdir [6].

Soyuq müharibə dövründə informasiya təbliğatı, dövlətlərin ideoloji güc nümayişinin mərkəzi komponentinə çevrilmişdi. SSRİ və Qərb dövlətlərinin-xüsusilə ABŞ və Böyük Britaniyanın təbliğat strategiyaları məqsəd və istifadə olunan vasitələr baxımından ciddi fərqlənirdi. SSRİ-nin təbliğat sistemi daha çox mərkəzləşdirilmiş, partiya nəzarətində və ideoloji monolitliyə əsaslanan bir modelə sahib idi. Bu modelin başlıca məqsədi sosialist ideologiyasının "ümumbəşəri üstünlüyünü" nümayiş etdirərək kapitalist sistemin ziddiyyətlərini qabartmaq idi.

Partizan döyüşçülərindən istifadə və pozucu taktikalar, digərləri arasında təxribat yaratmaq, dezinformasiya yaymaq Sovet hərbi düşüncəsinin əsas strategiyası idi. Bu taktikalar Soyuq Müharibə dövründə dünyanın müxtəlif bölgələrindəki məhdud "proksi münaqişələr"də ABŞ və SSRİ tərəfindən istifadə edilmişdir. Soyuq Müharibə dövründə informasiyanın təsiri əhəmiyyətli rola malik olmuşdur. Tərəflərin hər ikisi əks tərəfin ismarıclarının öz xalqını özünə qarşı çevirə biləcəyindən ehtiyat edirdi [10].

SSRİ-də təbliğatın əsas dayağı Kommunist Partiyası idi. Mərkəzi Komitənin Aqitasiya və Propaganda İdarəsi ideoloji nəzarəti bütün mətbuat, kino, teatr və təhsil sisteminə yaymışdı. Bu sistem "vahid ideoloji informasiya məkanı" yaratmaq məqsədini güdürdü və təbliğatında başlıca ideyanı "sülhsevər sosializm" və "müstəmləkəçilikdən azad olma" kimi dəyərlər formalaşdırmışdı [1, s.153-157]. Buna qarşı olaraq Qərb dövlətləri isə daha çeşidli və

çoxkanallı informasiya siyasəti yürüdürdülər. ABŞ Dövlət Departamenti, CIA və "United States Information Agency" vasitəsilə ideoloji rəqabəti "azadlıq", "demokratiya" və "insan haqları" dəyərləri üzərindən formalaşdırmışdı [2, s.65-70].

Qərb təbliğatının mühüm fərqi onun "yumşaq güc"strategiyasına əsaslanaraq hərbi və iqtisadi gücdən çox "mədəni cazibə" vasitəsilə üstünlük qazanmağa çalışması idi. "Radio Free Europe", "Voice of America" kimi media vasitələri olmaqla yanaşı, həm də Qərb həyat tərzinin simvoluna çevrilmişdi. ABŞ və Böyük Britaniya xüsusilə mədəni diplomatiya vasitələri olan kinofestivallar, mübadilə proqramları, caz musiqisi turları ilə SSRİ-nin təbliğat çərçivəsini zəiflətməyə çalışırdı [8, s.178].

SSRİ-nin təbliğat strategiyası daha çox daxili sabitliyi qorumağa və sosialist birliyi möhkəmləndirməyə yönəlmişdi. Qərb isə əksinə, öz informasiya axınını sərbəstləşdirərək, kommunist ideologiyasının "qapalı sistem" təbiətini ifşa etməyə çalışırdı. Tədqiqatçı P. Taylor qeyd edir ki, SSRİ təbliğatının dili "kütləvi ideoloji sədaqət" üzərində qurulmuşdusa, Qərb təbliğatı "fərdi azadlıq" və "fikir müxtəlifliyi" obrazını təbliğ edirdi.

Müqayisə göstərir ki, SSRİ-nin təbliğatı daha vertikal, Qərb dövlətlərinin isə horizontal xarakter daşıyırdı. SSRİ informasiya nəzarətini "ideoloji sabitlik" üçün vasitə sayırdısa, Qərb "ictimai manipulyasiyanın azadlıqla pərdələnmiş forması" kimi dəyərləndirirdi [3, s.44-47]. Nəticə etibarilə, Soyuq müharibənin informasiya cəbhəsi yalnız iki ideologiyanın toqquşması deyil, eyni zamanda iki fərqli kommunikasiya mədəniyyətinin qarşıdurması kimi formalaşmışdı.

Soyuq müharibə dövründə Qərb dövlətləri və Sovet İttifaqı arasında aparılan informasiya müharibəsi diplomatik münasibətlərin gedişatına birbaşa təsir göstərmişdir. Qərb mediası tərəfindən həyata keçirilən təbliğat kampaniyaları SSRİ-nin beynəlxalq imicini zəiflətməyə yönəlmişdi, nəticədə bəzi neytral ölkələrin Moskva ilə münasibətlərinə mənfi təsir göstərmişdir.

Eyni zamanda, SSRİ tərəfi də öz növbəsində Qərb dövlətlərini imperialist və təcavüzkar qüvvə kimi təqdim edərək diplomatik əlaqələrdə ideoloji baryerlər yaratmağa nail olmuşdur.

Müasir dövrdə informasiya məkanında aparılan mübarizə dövlətlərin xarici siyasət qərarlarının formalaşmasında, diplomatik münasibətlərin istiqamətində və beynəlxalq imicin formalaşmasında rol oynayır. İnformasiya müharibəsi yalnız hərbi və siyasi aspektdə deyil, eyni zamanda diplomatik münasibətlərin psixoloji və strateji ölçülərində təzahür edir [5, s.31].

İlk növbədə, informasiya müharibəsi dövlətlərin beynəlxalq aləmdə legitimlik və nüfuz qazanması prosesinə güclü təsir göstərir. Joseph Nye-nin "yumşaq güc" konsepsiyasına əsasən, dövlətlər təkcə zor vasitəsilə deyil, eyni zamanda informasiya və mədəni təsir mexanizmləri ilə

də cəmiyyətə güclü təsir göstərə bilir [5, s.19-22]. Müasir dövrdə bu, diplomatik münasibətlərdə üstünlük qazanmaq üçün vacib amil rolunu oynayırr.

İnformasiya müharibəsinin diplomatik əlaqələrə təsiri çox zaman dolayı və uzunmüddətli şəkildə baş verir. İnformasiya müharibəsi diplomatiyanı "masa arxası" danışıqlar sahəsindən çıxararaq, onu ictimai və psixoloji təsirin bir hissəsinə çevirir. Daha mühüm məqam da odur ki, informasiya müharibəsi nəticəsində "ictimai diplomatiya" anlayışı yaranmış və müasir beynəlxalq münasibətlərin əsas komponentlərindən birinə çevrilmişdir. "İctimai diplomatiya" vasitəsilə dövlətlər yalnız hökumətlərə deyil, eyni zamanda birbaşa cəmiyyətlərə müraciət edir, nəticədə diplomatik prosesin "təbəqələşmiş" xarakteri dəyişir. Bu, diplomatiyanın klassik modelindən fərqlənərək, dövlətlərarası münasibətləri daha çox informasiya və mədəni təsir kontekstində qiymətləndirməyə şərait yaradır [2, s.12-14].

Hazırkı dövrdə isə sosial media və rəqəmsal platformalar vasitəsilə aparılan informasiya əməliyyatları diplomatik münasibətlərin gedişatına güclü təsir göstərməkdədir. Belə ki, dezinformasiya kampaniyaları, saxta xəbərlər dövlətlər arasında qarşılıqlı etimadı zəiflədə və diplomatik gərginliklər yarada bilir.

Bu mənada informasiya müharibəsinin təsirini qiymətləndirmək üçün yalnız siyasi nəticələr deyil, eyni zamanda media davranışları, ictimai rəy göstəriciləri və diplomatik qərarların zamanla dəyişmə dinamikası da nəzərə alınmalıdır.

Nəticə etibarilə, informasiya müharibəsi müasir dövrdə dövlətlərarası münasibətlərin forması ilə yanaşı, həm də mahiyyətini dəyişdirən əsas amillərdən biridir. Diplomatik əlaqələr artıq sadəcə rəsmi yazışmalar və danışıqlarla deyil, informasiya axınları və rəyin idarə olunması mexanizmləri vasitəsilə də formalaşır. Bu səbəbdən də informasiya təsirlərinin sistemli şəkildə qiymətləndirilməsi beynəlxalq münasibətlər elminin aktual istiqamətlərindən biri kimi xüsusi əhəmiyyətə malikdir.

**Nəticə**

Tədqiqat göstərir ki, SSRİ və Qərb dövlətləri arasında aparılan informasiya müharibəsi yalnız ideoloji mübarizəsinin vasitəsi olmayıb, həm də beynəlxalq münasibətlər sistemində strateji təsir vasitəsi kimi çıxış etmişdir. Bu müharibə vasitəsilə dövlətlər yalnız ictimai rəy üzərində təsiri gücləndirə bilmişlər.

Yeni tədqiqatlar göstərir ki, ABŞ-ın "Project Pedro" və "Crusade for Freedom" kimi gizli proqramları Latın Amerikası və Şərqi Avropada kommunizm əleyhinə təbliğatın əsas vasitəsinə çevrilmişdir. SSRİ isə radio, kino və mətbuat vasitəsilə sosialist ideologiyasını gücləndirərək Blok daxilində və postsovet ölkələrində strateji üstünlük əldə etmişdir.

Müasir yanaşmalar göstərir ki, informasiya müharibəsi yalnız dövlətlərin deyil, həm də qeyri-dövlət daxilində - jurnalistlər, mədəniyyət xadimləri və akademik dairələrin fəaliyyətində mühüm rol oynamışdır. Eyni zamanda "Gerasimov Doktrinası" və süni intellekt texnologiyaları göstərir ki, informasiya müharibəsi müasir dövrdə də beynəlxalq münasibətlərdə strateji vasitə kimi istifadə olunmaqdadır.

Tədqiqat göstərir ki, informasiya müharibəsi həm tarixi proseslərin anlaşılmasında, həm də müasir dövlət strategiyalarının formalaşdırılmasında mühümdür. Bu yanaşma dövlətlərin beynəlxalq nüfuzunu artırmaq, rəqabət üstünlüyü qazanmaq və ictimai şüuru təsir altına almaqda effektiv vasitə rolunu oynayır.

Nəticə etibarilə, SSRİ və Qərb bloku arasında aparılan informasiya müharibəsi tarixi, siyasi, texnoloji və psixoloji aspektləri ilə beynəlxalq münasibətlərin inkişafında əsaslı rol oynamış, müasir dövrdə isə dövlətlərin informasiya sahəsindəki strategiyaları üçün qiymətli elmi baza təmin etmişdir.

**Ədəbiyyat**

1. Andrew, C., Gordievsky O., (1990), KGB: The Inside Story., London: Hodder & Stoughton, p.624.
2. Cull N.J., (2008), The Cold War and the United States Information Agency: American Propaganda and Public Diplomacy, 1945–1989, Cambridge, Cambridge University Press., s.562.
3. Herman, E.S., Chomsky N., (2002), Manufacturing Consent: The Political Economy of the Mass Media, New York, Pantheon Books, s.412
4. Klein, N., (2007), The Shock Doctrine: The Rise of Disaster Capitalism., New York, Metropolitan Books, p.576.
5. Nye J.S., (2004), Soft Power: The Means to Success in World Politics, New York, PublicAffairs, s.191.
6. Özçağlayan M., Apak, D., Aralık / December 2017 Sayı, Soğuk Savaş Yıllarında Algı Yönetimi, Haber ve Propaganda İlişkisi, Marmara İletişim Dergisi, s.107-130.
7. Smith C., (2019), Cold War Propaganda and Power, London, Routledge, p.272.
8. Taylor P.M., (2003), Munitions of the Mind: A History of Propaganda from the Ancient World to the Present Day, Manchester, Manchester University Press, p.344.
9. Uğur, Xalq Cəbhəsi.,- 2014.- 29 mart.- s.9.

10. Soyuq müharibə dövründə hibrid müharibə - I yazı: [Elektron resurs] / – 15 oktyabr, 2025. URL: https://strategyvision.org/az/news/136/-soyuq-muharibe-dovrunde-hibrid-muharibe--i-yazi--

## INFORMATION CONFLICT DURING THE COLD WAR: POLITICAL IMPACTS OF IDEOLOGICAL COMPETITION BETWEEN THE USSR AND THE WEST

**E.B. Talyshinsky, R.B. Safarova**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** The article examines the essence of the information struggle that developed between the USSR and the Western states during the Cold War, the impact of ideological competition on interstate relations through the media and diplomacy. The study shows that propaganda and the media were not only the main means for shaping public opinion, but also the main means for determining diplomatic relations and state strategies.

**Keywords:** Cold War, ideological competition, media and politics, media diplomacy.